Astrid Lindqren

# Uzuncorab Pippi səfərdə

Uzuncorab

# Pippi

səfərdə

Astrid Lindqren



# Pippinin bazarlığa getməsi

Günəşin parladığı, quşların oxuduğu, göl-məçələrin isə hələ qurumadığı xoş bir yaz günündə Tommi və Annika qaça-qaça Pippinin yanına gəldilər. Tommi at üçün bir neçə parça qənd götürmüşdü və onlar bir dəqiqə artırmada dayanıb şappıltı ilə atın böyrünə vurdular, ona qənd verdilər. Sonra da Pippinin otağına girdilər, həmişəki kimi Pippi ayaqlarını balışın üstünə qoymuş, yorğanı başına çəkmiş və hələ də yerində uzanıb yatmışdı.

Annika onun barmağından dartıb dedi:

– Ayağa qalx!

Yuxudan çoxdan ayılmış cənab Nilson isə abajurda oturub yellənirdi. Bir qədər keçdi, yorğan tərpəndi və altından pırpızlaşmış, sarışın saçlı baş çıxdı. Pippi parlaq gözlərini açdı və gülümsədi.



– Hə, deməli, məni çimdikləyən sizsiniz, mən isə yuxuda gördüm ki, zənci kralı atam ayaqlarımda döyənək olub-olmadığını yoxlayır.

Pippi çarpayının qırağında oturdu və corablarını geyməyə başladı – bildiyimiz kimi, corabların biri qəhvəyi, o biri qara rəngdə idi.

– Heç belə gözəl ayaqqabı geyənin ayağı döyənək olar?! – deyə o, ayağından düz iki dəfə böyük olan qara ayaqqabılarını geydi.

– Pippi, indi biz nə edəcəyik? – Tommi soruşdu. – Bu gün məktəbdə bizim ikimizin də dərsimiz yoxdur.

Pippi dedi:

– Belə məsuliyyətli qərar qəbul etməzdən əvvəl yaxşıca fikirləşmək lazımdır. Biz yeni il yolkası ətrafında oynaya bilməyəcəyik, çünki düz üç ay bundan qabaq keçirmişik. Buz üstə də sürüşə bilmərik, çünki o da çoxdan əriyib. Yəqin ki, qızıl külçələri axtarmaq maraqlı olar, bəs onları harada axtarmaq? Ən çox Alyaskada qızıl axtarırlar, amma orada qızıl axtaranlar o qədərdir ki, biz onları yarıb keçə bilmərik. Yox, fikirləşib başqa bir şey tapmalıyıq.

Annika dedi:

– Əlbəttə, özü də maraqlı bir şey.

Pippi saçlarını ayırıb iki bərk hörük hördü – bu dimdik hörüklər gülməli şəkildə hərəsi bir yana baxırdı. Qız xəyala daldı. Nəhayət, dedi:

– Qərara gəldim. İndi biz şəhərə gedib bütün mağazalara dəyərik: axı biz əvvəl-axır bazarlıq da etməliyik.

– Ancaq bizim pulumuz yoxdur, – deyə Tommi bildirdi.

– Məndə pul bir anbar, – deyib Pippi çamadana yanaşdı, onu açdı. Çamadan ağzınacan qızıl pulla dolu idi.

Pippi bir ovuc pul götürüb cibinə tökdü.

– Mən hazır, indi bircə şlyapamı tapım.

Şlyapası heç yerdə tapılmadı. Pippi əvvəlcə odun yığılan anbara cumdu, lakin son dərəcə təəccübləndi: buna səbəb şlyapanın nədənsə anbarda olmaması idi. Sonra bufetin çörək qoyulan gözünə baxdı, orada ancaq corabbağı və zəngi sınıq saat var idi. Nəhayət o, içinə şlyapa qoyulan karton qutunu açdı: orada da qupquru suxarı, tava, vintaçan və bir tikə pendirdən başqa heç bir şey tapmadı.

– Bu necə səliqəsiz evdir! Heç bir şey tapmaq olmur! – Pippi deyinirdi. – Amma bu bir tikə pendiri tapmağım çox yaxşı oldu, mən bunu lap çoxdan axtarırdım.

Pippi otağa bir də göz gəzdirdi və qışqırdı:

– Hey, şlyapa, mənimlə mağazaya getmək istəmirsən, nədir? Əgər sən dərhal meydana çıxmasan, gec olacaq.

Şlyapa isə meydana çıxmadı. Pippi ciddiyyətlə dedi:

– Yaxşı, əgər sən belə qanmazsansa, özündən küs. Ancaq səni evdə qoyduğuma görə nə inildə, nə də narazı qal.

Tezliklə üç uşaq yüyürərək şəhərə gedən şoseyə çıxdı – Tommi, Annika və çiynində cənab Nilson olan Pippi. Günəş par-par parıldayırdı,

səma mavidən də mavi idi, uşaqlar atıla-atıla sevinclə qaçırdılar. Birdən onlar dayandılar: yolun ortasında çox böyük bir gölməçə var idi.

– Nə əntiqə gölməçədir! – deyə Pippi heyrət etdi və sevinə-sevinə dizlərinə qədər olan suya girib ayaqlarını şappıldada-şappıldada yeridi. Suyun ortasına çatanda atılıb-düşməyə başladı, soyuq su damcıları Tomminin və Annikanın üstünə səpələndi.

– Mən gəmi-gəmi oynayıram! – deyə o qışqırdı və suda fırlandı, lakin o dəqiqə sürüşüb şappıltı ilə suya düşdü. – Daha doğrusu, gəmi yox, sualtı qayığı, – başı suyun üzərinə çıxan kimi Pippi səhvini düzəltdi.

– Nə edirsən, Pippi, – Tommi dəhşətlə çığırdı, – axı sən yamyaşsan!

– Nə edirsən, Pippi, – Annika dəhşətlə çığırdı, – axı sən yamyaşsan!

– Burada nə pis iş var ki? – deyə Pippi təəccübləndi. – Onu kim deyib ki, uşaqlar mütləq quru olmalıdır? Mən dəfələrlə eşitmişəm, böyüklər inandırmağa çalışırlar ki, insan üçün bədəni soyuq su ilə silməkdən xeyirli şey yoxdur. Uşaqlara isə gölməçələrə girmək xüsusilə bizim ölkədə qadağandır. Bizə nədənsə tapşırırlar ki,

gölməçələrdən yan keçək! Bəli də, indi gəl nəyin pis, nəyin yaxşı olduğunu ayırd elə görək! Amerikada isə uşaqların hamısı gölməçələrdə otururlar, orada bir dənə də boş gölməçə yoxdur: hamısı uşaq-muşaqla doludur. Elə beləcə də bütün il boyu! Əlbəttə, qışda gölməçələr donur və o zaman buzun üstə uşaq başları görünür. Amerika uşaqlarının anaları isə onlara meyvə supu və küftə gətirir, çünki onlar evə qaçıb nahar edə bilmirlər. Amma inanın ki, dünyada onlardan sağlam uşaq yoxdur – onlar yaman davamlı olurlar!

Həmin bu aydın yaz günü şəhər çox cazibədar görünürdü, ensiz, əyri-üyrü küçələrin çay daşı döşəmələri günəşdə par-par parlayır, bütün evləri əhatə edən balaca bağça-bağlarda isə artıq krokuz və novruzgülü çiçəkləmişdi. Şəhərdə çoxlu dükan və mağaza var idi. Onların qapıları dəqiqəbaşı açılıb-örtülür, hər dəfə zəng bərkdən cingildəyirdi. Alverin qızğın çağı idi. Arvadlar əllərində zənbil, piştaxtaların qabağında toplanmışdılar. Onlar qəhvə, qənd, sabun və yağ alırdılar. Uşaqlar isə qoğal və ya bir paket saqqız almaq üçün bura qaçıb gəlirdilər. Ancaq uşaqların çoxunun pulu olmadığından onlar qəşəng vitrinlərin